**Musiqi xadimlərimiz**

# İstedadın və zəhmətin gücü ilə ucalan bəstəkar

O, istedadlı olduğu qədər də zəhmətsevər idi. Odur ki, uzun yaradıcılıq yolu hər zaman uğurlarla müşayiət olundu. Bəstəkar Azər Rzayev bir-birindən gözəl əsərləri ilə Azərbaycan musiqi mədəniyyətini zənginləşdirdi.

1930-cu il iyulun 15-də Bakı şəhərində dünyaya gəldi. Atası Hüseyn Rzayev rejissor, anası Həqiqət Rzayeva məşhur opera müğənnisi idi. Azər Rzayev onların üç övladından ikincisiydi. Musiqiyə sonsuz sevgisinin yaranmasında valideynlərinin böyük rolu oldu. Kiçik yaşlarından evdə eşitdiyi söhbətlər daha çox musiqi, səhnə, tamaşalarla bağlı idi. Ata-anası eyni sənət ocağında - Opera və Balet Teatrında çalışırdılar. Hüseyn Rzayev həmin teatrın aparıcı rejissoru, Həqiqət Rzayeva isə Opera və Balet Teatrında hazırlanan tamaşalarda əsas qadın rolarının ifaçısı idi.



Müsahibələrində onların evlərinə tez-tez qonaq gələn sənətkarları - Niyazini, Bülbülü, Qurban Primovu, Əlövsət Sadıqovu, Hüseynağa Hacıyevi yada salırdı: "Biz ağlımız kəsəndən evimizdə musiqi səsləri eşitmişdik. Yəqin elə buna görə musiqiçi olduq. Bacım Bülbül adına musiqi məktəbini bitirəndən sonra ərəb dilini öyrəndi, müəllim işlədi. Ancaq qardaşım Həsənlə mən bəstəkar olduq. İkimiz də musiqi bəstələməyə kiçik yaşlarımızdan başladıq. Qardaşım konservatoriyanın nəzdində fəaliyyət göstərən onillik musiqi məktəbinin altıncı, mən isə dördüncü sinfində oxuyanda anam bizim bacarığımıza Üzeyir bəy Hacıbəylinin qiymət verməsini istədi. Qardaşımla məni yanına salıb konservatoriyaya apardı..."

O gün dahi Üzeyir bəy Hacıbəylinin qarşısında əvvəlcə o, sonra da qardaşı kiçik əsərlər ifa etdilər. Üzeyir bəy Həqiqət Rzayevaya: "Sənin oğlanlarının ikisi də bəstəkar olacaq", - dedi. Və zəngi basdı. Köməkçisi gəldi. Üzeyir bəy ona dedi: "Bunların ikisini də Zeydmanın sinfinə yazdır".

Azər Rzayev danışırdı ki, Zeydman çox bilikli müəllim idi. O, Fikrət Əmirov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Soltan Hacıbəyov və başqalarına dərs demişdi. Azər Rzayev və qardaşı da Üzeyir bəyin köməyi ilə Zeydmanın sinfində oxumağa başladılar.

Azər Rzayev Azərbaycan Dövlət Konservatoriyasının (hazırda Bakı Musiqi Akademiyası) nəzdindəki 11 illik orta ixtisas musiqi məktəbində skripka aləti üzrə professor Semyon Bretanitskinin sinfində və eyni zamanda Boris Zeydmanın uşaq yaradıcılığı sinfində təhsil aldıqdan sonra Azərbaycan Dövlət Konservatoriyasına daxil oldu. Həmin məktəbi 1953-cü ildə iki ixtisas üzrə - bəstəkarlıq üzrə professor B.Zeydmanın və skripka üzrə professor A.Amitonun sinfini bitirdi. 10 illik musiqi məktəbində skripka ixtisası üzrə müəllim və konservatoriyada konsertmeyster-müşayiətçi kimi fəaliyyətə başladı.

Onu bəstəkar kimi ilk tanıdan skripka ilə simfonik orkestr üçün 1 saylı konserti oldu. 1955-ci ildə həmin əsərə görə, Varşavada keçirilən bəstəkarların Beynəlxalq müsabiqəsində laureat adını qazandı. Sonralar Beynəlxalq və Ümumittifaq müsabiqələr laureatı, Azərbaycan gəncləri arasında keçirilən festivallarda həm bəstəkar, həm də ifaçı kimi laureat adlarına layiq görüldü.

Azər Rzayev 1954-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının, 1957-ci ildən isə Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü oldu.

İnstrumental musiqi janrları bəstəkarın yaradıcılığında əsas yeri tutur. Azər Rzayev skripka ilə simfonik orkestr üçün 3 konsertin, 6 poemanın, eləcə də "Həyat vurğunu", "Nəsimi", "Atamın xatirəsinə" poemalarının, "Bakı-90" simfoniyasının, skripka ilə orkestr üçün "Fədai-Vətən", violonçel və simfonik orkestr üçün "Poema-konsert"in, tar və simfonik orkestri üçün "Düşüncə" və "Qaytağı", fortepiano və simfonik orkestr üçün konsertin, eləcə də "Hacı Kərimin Aya səyahəti" adlı operettanın, çoxlu sayda kamera-instrumental əsərlərin, tamaşalara, filmlərə yazılmış musiqilərin müəllifidir.

O, gənc yaşlarından yalnız istedadlı bəstəkar və ifaçı kimi tanınmadı. Azər Rzayev həm də Radio və Televiziya komitəsində səs rejissoru (1958-1960), Müslüm Maqomayev adına Dövlət Filarmoniyasında bədii rəhbər (1965), Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru (1972-1987) işlədi. Azərbaycan Dövlət Opera və Balet Teatrına rəhbərlik etdiyi illərdə onun təşəbbüsü ilə Azərbaycan bəstəkarlarının bir sıra yeni opera və balet əsərləri uğurla tamaşaya qoyuldu.

İstedadının və zəhmətinin gücü ilə ucalan sənətkar Əməkdar incəsənət xadimi, Xalq artisti fəxri adlarına, "Şöhrət" ordeninə layiq görüldü. Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif olundu.

Azərbaycan bəstəkarlıq məktəbinin tanınmış nümayəndələrindən biri olan Azər Rzayev 2015-ci il dekabrın 14-də vəfat etdi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 3 avqust, (№ 163).- S.10.